# İNŞAATÇI KADRLAR

Azərbaycan Memarlıq və İnşaat Universitetinin qəzeti

The newspaper of Azerbaijan University of Architecture & Construction

№6(471) 30 sentyabr 2024-cü il www.azmiu.edu.az


## TARİX YAZANLARI TARİX YAŞADIR

### 27 Sentyabr – Şəhidlərimizin Anım Günüdür



Azərbaycan Memarlıq və İnşaat Universitetində 27 Sentyabr – Anım Gününün dördüncü ildönümünə həsr olunan tədbir keçirilib.

Universitet şəhidlərinin xatirəsinə ehtiram olaraq yaradılan Memorial Xatirə Kompleksinin qarşısında keçirilən tədbirdə professor-müəllim, tələbə heyəti ilə yanaşı şəhid ailələri və qazilər də iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bu əlamətdar tədbirdə çıxış edən sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Orxan Naqdiyev Azərbaycanın müasir tarixində çox önəmli yer tutan 27 Sentyabr – Anım Gününün qələbəni bizə bəxş edən şəhidlərimizin xatirəsini əbədi yaşatmaq üçün təsis edildiyini diqqətə çatdırıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun Vətən müharibəsində əldə etdiyi zəfərdən danışıb. Prorektor qələbəni təmin edən əsas amillərdən birinin tarixin böyük sınağından uğurla çıxan xalq-dövlət-ordu birliyinin olduğunu söyləyib. Çıxışının sonunda ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə şəfa diləyib.

Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Şahmar Rəfili və Nəqliyyat fakültəsinin dekanı Elçin Yusifzadə ikinci Qarabağ müharibəsində əldə edilən zəfərin tarixi əhəmiyyəti haqqında fikirlərini bölüşüblər. 44 günlük müharibəni Azərbaycanın suverenliyinin bərpasına gedən yolun başlanğıcı hesab edib, xalqımız tərəfindən hər zaman qürur günü kimi xatırlanacağını bildiriblər.

AzMİU-nun şəhid məzunu Rauf İbadovun atası Məhərrəm İbadov oğlunun şərəfli ömür yolundan danışıb. Övladının şücaətindən fəxarətlə bəhs edən ata, onun çox vətənpərvər, ailəsinə bağlı övlad olduğunu bildirib. Söyləyib ki, general-mayor, Milli Qəhrəmanımız Polad Həşimov şəhid olarkən Rauf dərin sarsıntılar keçirib, onda qisas hissini alovlandırıb.

Vətən müharibəsi iştirakçısı İbrahim Vaqifoğlu çıxış edərək keçdiyi döyüş yolundan bəhs edib. Həmin günlərə qayıdıb, ordumuzun döyüş əzminə, əsgərlərimizin düşməni lərzəyə salan milli ruhuna diqqət çəkib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir. Bu əlamətdar günlə əlaqədar AzMİU-da ilk dərslər vətənpərvərlik mövzusuna həsr olunur.

### AzMİU kollektivi Zəfər Parkında şəhidlərin əziz xatirəsini yad edib

Vətən Müharibəsinin dördüncü ildönümü ilə əlaqədar Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə xanım Məmmədova, universitetin struktur bölmələrinin rəhbərləri, ictimai və tələbə təşkilatlarının nümayəndələri, professor-müəllim heyəti və tələbələr şəhidlərimizin xatirəsini yad etmək üçün Bakıda inşası davam etdirilən Zəfər Parkında oldular.

AzMİU-nun kollektivi parkın girişindəki xatirə daşının önünə gül dəstələri düzüb, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarından keçmiş şəhidlərimizin xatirəsini hörmət və ehtiramla anıblar.

**PR və Media**

## AzMİU yeni tələbələri ilə birgə 50-ci tədris ilinə qədəm qoydu



**Azərbaycan Memarlıq və İnşaat Universitetində Yeni tədris ilinin başlanması və Bilik Gününə həsr olunan tədbir keçirilib.**

**Yüksəkixtisaslı kadrların bilik yolunda ilk addımını atdığı bu əlamətdar gündə ilk olaraq müasir müstəqil Azərbaycanın banisi, dahi şəxsiyyət, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin azadlığı uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.**

**Açılış mərasimində professor-müəllim heyəti, valideynlər, tələbələr qarşısında çıxış edən universitetin rektoru professor Gülçöhrə Məmmədova onları salamlayıb. Rektorluq adından Yeni tədris ilinin ilk dərs günü münasibətilə AzMİU-nun tələbəsi adını qazanan gəncləri və onların valideynlərini ürəkdən təbrik edib.**

**Ölkəmizdə bilik iqtisadiyyatının qurulduğunu vurğulayan professor Gülçöhrə Məmmədova professor-müəllim heyəti və tələbələri daha əzmlə çalışmağa səsləyib: "Bu gün biliklərə əsaslanan yeni texnologiyalara sahib ölkələr sürətlə öncül mövqelərə daşınır. İntellektual səviyyəsi yüksək ölkələr yaratdığı yeni texnologiyalarla sənaye, iqtisadiyyat və digər sahələri inkişaf etdirərək qabaqcıl ölkələr siyahısında qərarlaşır. Prezident İlham Əliyev tərəfindən aparılan siyasət də məhz bu istiqamətə yönəlib. Biz daha çox çalışmaqla, Azərbaycanı dünyaya daha çox tanıtmalı, nüfuzunu daha da artırmalıyıq.**

**Rektor çıxışında 2024/2025-ci tədris ilində AzMİU-nun qəbul planı və tələbə sayını da açıqlayıb: "AzMİU bu il qəbul planının 94% yerinə yetirib. Universitetə 2301 nəfər abituriyent qəbul olub, onlardan 1216-sı dövlət sifarişi əsasında təhsil alacaq. Magistratura səviyyəsinə qəbul olan tələbə sayı isə 952-dir. Beləliklə, ümumilikdə 3200 nəfərdən çox gənc AzMİU-da təhsil almaq şansı qazanıb. Ötən ilə nisbətən bu il onlar arasında 500–600 bal yığan gənclərin sayı daha da artıb. Bu, universitet olaraq bizim doğru istiqamətdə olduğumuzun göstəricisidir, eyni zamanda bizim üçün əlavə motivasiyadır".**

**Qeyd olunan nəticənin universitetimizin tarixinə yazılan böyük nailiyyət kimi dəyərləndirən rektor Gülçöhrə Məmmədova akademik heyət üzərinə də böyük məsuliyyətin düşdüyünü söyləyib. Ölkəmizin COP29 kimi mötəbər tədbirə ev sahibliyi edəcəyini xatırladaraq, dünya əhəmiyyətli bu hadisənin universitetdə hazırlanan ixtisaslar üçün də önəmli olduğunu qeyd edib.**

**Tədbirin xüsusi qonağı işğaldan azad edilmiş ərazilərimizdə tikinti-quruculuq işlərində yaxından iştirak edən Türkiyənin "ProYapı" şirkətinin icraçı direktoru Akif Aygen çıxış edərək Yeni tədris ilinin başlanması münasibətilə tələbə və müəllimləri təbrik edib. AzMİU-nu inşaat və memarlıq istiqamətində yüksəkixtisaslı mütəxəssis hazırlayan qabaqcıl universitet kimi qiymətləndirib. Universitetin artan dinamika ilə inkişafını beynəlxalq təcrübələri, innovativ elmi yenilikləri uğurla tətbiq etməsi ilə əlaqələndirib.**

**631 balla Memarlıq fakültəsinə qəbul olan Əminət Şabanova və AzMİU ilə İTU arasında ikili diplom proqramının məzunu, hazırda isə universitetin magistratura səviyyəsinə qəbul olan tələbəsi Asiman Əlizadə öz sevincini tədbir iştirakçıları ilə bölüşüblər.**

**Qeyd edək ki, bu il universitetimizi seçənlər arasında şəhid övladları da yer alıb. Şəhid mayor Rüfət Əsgərovun oğlu Xansuvar Əsgərli bakalavriat, şəhid baş leytenant Valeh Babayevin oğlu Səid Babayev magistratura səviyyəsinə qəbul olublar.**

**Tədbirin sonunda universitetə yüksək balla qəbul olan gənclərə universitet rəhbərliyi tərəfindən tələbə biletləri təqdim olunub.**

## Universitetimizdə yay semestri uğurla keçib

2023/2024-cü tədris ilində universitetdə tələbələr üçün yay semestri təşkil olunmuşdur. Rektor, professor Gülçöhrə xanım Məmmədovanın yay semestrinin təşkili və keçirilməsi barədə 22.07.2024-cü il tarixli əmrində qeyd olunur ki, yay semestri 5 tədris həftəsindən və 1 həftə imtahan sessiyasından ibarət olmaqla 22.07.2024-cü il tarixindən 23.08.2024-cü il tarixinədək keçirilsin.

Yay semestri müvafiq qaydalara uyğun təşkil olundu, tədrisin keyfiyyətinə nəzarət, tədris olunan fənlər üzrə imtahanların keçirilməsi və bu zaman şəffaflığın, obyektivliyin təmin olunması üçün müvafiq tədbirlər görüldü. Yay semestri təhsil qanunvericiliyinin tələblərinə uyğun olaraq tələbələrə müvafiq kreditlərin toplanması üçün şərait yaradılması məqsədi daşıyır. Yay semestrinin təşkili məqsədilə müvafiq kafedraların müəllimləri tərəfindən sillabuslar hazırlanıb və 22.07.2024-cü il tarixindən dərslərə başlanılıb.

Yay semestrində dərslər ümumilikdə 47 fənn üzrə aparılıb. Fənləri tədris etmək üçün universitetin 26 nəfərdən ibarət professor-müəllim heyəti yay semestrinə cəlb olunmuşdur. Yay semestri qısa vaxt çərçivəsində tələbələrə maksimum dərəcədə bilik vermək və imtahanlardan uğurla keçmək üçün onları yüksək səviyyəli dərs proqramı ilə təmin etmək məqsədi daşıyırdı. Yay semestrində 272 tələbə, o cümlədən 14 nəfər digər universitetlərdən qeydiyyatdan keçərək təhsil alıb, onlardan 166 nəfəri test, 106 nəfəri isə yazılı imtahanda iştirak edib.

**Səlmi Əliyeva**

## AzMİU və "QS Quacquarelli Symonds" reytinq agentliyi arasında əməkdaşlıq müqaviləsi imzalanıb



Sentyabrın 17-də Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanıb.

İmzalanma mərasimində AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova bildirib ki, bu müqavilə AzMİU-nun beynəlxalq rəqabətliliyinin artırılmasına dəstək olacaq. Rektor qeyd edib ki, AzMİU-nun əsas hədəfi elmin qabaqcıl nailiyyətlərinə, innovativ təhsil texnologiyalarına əsaslanaraq yeni nəsil rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasını təmin etməkdir.

Professor Gülçöhrə Məmmədova vurğulayıb ki, "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi ilə əməkdaşlıq dövlətin ali təhsil sistemi ilə bağlı siyasəti ilə də uzlaşır və bu istiqamətdə əhəmiyyətli addımdır. "QS Quacquarelli Symonds" agentliyinin Şərqi Avropa və Orta Asiya üzrə regional direktoru Sergey Xristolubov AzMİU-da qlobal rəqabətədavamlılığın artırılması, universitetin beynəlxalq reytinq sistemlərində irəliləməsi məsələlərinə xüsusi diqqət yetirildiyini vurğulayıb.

Qeyd edək ki, müqavilə əsasında AzMİU-nun qlobal rəqabətədavamlılığını artırmaq, universitetin beynəlxalq sahədə tanınmasını gücləndirmək və nüfuzunun artırılması məsələləri haqqında razılığa gəlinib.

Sənədə uyğun olaraq, AzMİU akademik nüfuz, işəgötürənlər arasında reputasiya, nəşr fəallığı, beynəlmiləlləşdirilmə və onlayn mühitdə iştirak strategiyasının formalaşdırılması imkanını verən "QS Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyinin özəl məlumatlarına və analitik informasiyasına da giriş əldə edəcəkdir.

**Nicat Abdullayev**

## "TələbəPlus" – Tələbə statusu üstünlük olacaq



Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə Təhsilin İnkişafı Fondu arasında (TİF) "TələbəPlus" layihəsi çərçivəsində əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova və Fondun İdarə Heyətinin sədri Elnur Nəsibov imzalayıblar.

Bununla bağlı AzMİU-da iki qurumun rəhbərləri və nümayəndə heyətləri arasında görüş keçirilib. Görüşdə vurğulanıb ki, "TələbəPlus" layihəsi TİF, "Kapital Bank" və "Visa" beynəlxalq ödəmə texnologiyaları şirkətinin əməkdaşlığı çərçivəsində gerçəkləşdirilir və vahid tələbə kartlarının tətbiq edilməsini nəzərdə tutur. Builki tədris ilindən etibarən tətbiq olunan vahid tələbə kartı universitetə giriş-çıxış, debet, ödəniş kartı kimi istifadə ilə yanaşı, tələbələrə endirim, güzəşt və keşbek imkanları təklif edir.

Professor Gülçöhrə Məmmədova dünya təcrübəsində rast gəlinən bu cür sosialyönümlü layihələrin Azərbaycanda da tətbiq olunmasını böyük nailiyyət kimi qiymətləndirib və tələbələr adına sevindirici hal olduğunu qeyd edib. Rektor bildirib ki, tələbələrə sosial dəstək xarakterli ideya və təşəbbüslər ali təhsil almaq imkanlarını genişləndirməklə yanaşı, ümumilikdə gənclərin bu istiqamətə yönəlməsinə də xidmət edir.

Elnur Nəsibov layihənin necə ortaya çıxması, bunun üçün aparılan danışıqlar barədə məlumat verib. AzMİU-nun müqavilənin imzalandığı ilk ali təhsil ocaqlarından biri olduğuna diqqət çəkən, eyni zamanda, layihənin bütün ölkə üzrə tələbələrin eyni güzəşt və endirimlərdən yararlanmalarını təmin etmək məqsədilə həyata keçirildiyini deyən Fond rəhbəri ilkin olaraq 150 min tələbə kartının istifadəyə verilməsinin planlaşdırıldığını qeyd edib. Elnur Nəsibov alış-veriş mərkəzlərində və tələbələrin ən çox istifadə etdiyi müxtəlif iaşə obyektlərində onlara özəl güzəştlər olunması üçün Fondun öz tərəfdaşları ilə birlikdə 200-dən artıq şirkətlə razılaşma əldə etdiyini diqqətə çatdırıb. Bildirib ki, Mədəniyyət Nazirliyi ilə ilkin anlaşmaya əsasən, muzeylər, qalereyalar və sərgi salonlarında da tələbələr üçün xüsusi güzəştlər tətbiq ediləcəkdir.

Görüşdə, həmçinin AzMİU ilə TİF arasında gələcək əməkdaşlıqlar üzrə fikir mübadiləsi aparılıb.

Sonra qonaqlar AzMİU-nun Memarlıq və Dizayn fakültələrinin tədris binalarında olublar. Rektor qonaqlara tədris binasının tarixi, memarlığı, sərgilənən diplom və kurs işləri, fotostendlər haqqında məlumat verib.

**Günel Həsənova**

## Rektorumuz xaricdə yaşayan Azərbaycanlı alimlərin Forumunda çıxış edib




Sentyabrın 9-da Bakıda Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu öz işinə başlayıb.

Tədbirdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova da iştirak edib.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub.

Daha sonra "Heydər Əliyev və təhsil" mövzusunda videoçarx nümayiş olunub.

Tədbirin moderatoru, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov azərbaycanlı alimlərin iştirakı ilə keçirilən Forumu Azərbaycanın gücünün və birliyinin ifadəsi kimi qiymətləndirib.

Tədbirdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev vurğulayıb ki, xaricdə yaşayan Azərbaycan alimlərinin iştirakı ilə elmimizin səviyyəsinin artırılması, yeni dövrün tələblərinə uyğun kadrların yetişdirilməsi zamanın tələbidir.

Əməkdar elm xadimi, Münxen Texniki Universitetinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, fizika-riyaziyyat elmləri doktoru, dünya şöhrətli azərbaycanlı alim Məsud Əfəndiyev qeyd edib ki, forumun təşkilində məqsəd Azərbaycan elminin inkişafına töhfə vermək, peşəkar və gənc alimlər arasında körpü yaratmaqdır.

Forumda Azərbaycan elminin inkişaf etdirilməsi istiqamətində maraqlı müzakirələrin aparılacağına əminliyini diqqətə çatdıran elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, tədbir çərçivəsində ən vacib məqam Azərbaycandan kənarda yaşayan alimlərimizlə inteqrasiya məsələsidir.

Elm və Təhsil Nazirliyi tərəfindən göstəriləcək dəstək və imkanlar barədə danışan nazir transformasiyanın ən böyük problem olduğunu qeyd edib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov qeyd edib ki, Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun təşkili, dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən azərbaycanlı alimlərin Bakıda toplanması mühüm hadisə hesab edib.

"Qadınlar nüvə sahəsində" Ümumdünya Assosiasiyasında Azərbaycanın rəsmi nümayəndəsi Dinara Abbasovanın (Avstriya) moderatorluğu ilə forum çərçivəsində "Azərbaycanda elm və ali təhsilin beynəlmiləlləşməsində alimlərin rolu" mövzusunda panel müzakirələr aparılıb.

Günün sonunda "Qlobal akademik şəbəkənin qurulması: yerli universitet və elmi tədqiqat institutlarının inkişafı üçün yeni yanaşmalar" mövzusunda da panel müzakirələr aparılıb. Dünya şöhrətli alim Məsud Əfəndiyevin moderatorluğu ilə aparılan müzakirələrdə çıxış edənlər qlobal akademik şəbəkənin qurulması ilə bağlı mülahizələrini səsləndirib, təkliflərini bildiriblər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova Azərbaycan universitetlərinin qərb standartlarına uyğunlaşdırılmasına diqqət çəkib, birgə konfransların keçirilməsinin əhəmiyyətini qeyd edib. Qərb elmi ilə əlaqələrin qurulması və faydalı əməkdaşlığın əhəmiyyətindən bəhs edərkən o, faydalı əməkdaşlığın formalaşmasının birgə fəaliyyətimizə təkan verə biləcəyini vurğulayıb.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən Vazeh Əskərov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Bakı Mühəndislik Universitetinin rektoru Yaqub Piriyev və Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək rəhbərlik etdikləri ali məktəblərdə görülən işlərdən söhbət açıblar.

Panel iclası qarşılıqlı fikir mübadiləsinin aparılması ilə yekunlaşıb.

**"İnşaatçı kadrlar"**

## Universitetimizin müəllimi tətbiq və bacarıqların artırılması layihəsi çərçivəsində Koreyada təlimdə iştirak edib

Azərbaycan Memarlıq və İnşaat Universiteti Tələbə Elmi Cəmiyyətinin (TEC) sədri, "Sənayenin təşkili və idarə edilməsi" kafedrasının müəllimi Günel İmamquliyeva Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkı və Cənubi Koreyanın Elm və Texnologiya Siyasəti İnstitutunun birgə həyata keçirdiyi "Azərbaycanda Yüksək Texnologiyalar Parkının istismar proqramı: tətbiq və potensialın artırılması" layihəsi çərçivəsində Seul şəhərində təşkil olunan "2024 K-İnnovasiya Təlim Proqramı"nda (texnologiya startapları üçün təlimçilərin təlimi) iştirak edib.

Startapları ilə bağlı təlimlər üç hissədən ibarətdir və ilk təlim cari ilin iyul ayında onlayn formada, koreyalı professorların təqdimatında keçirilib. Təlimdə ölkəmizdən ümumilikdə 17 nəfər iştirak edib və onlardan 6 nəfəri, 25–29 avqust tarixlərində Seulda baş tutan təlimdə iştirak hüququ qazanıb.

Seula səfər zamanı təlim iştirakçıları, eyni zamanda Azərbaycan Respublikasının Koreyadakı səfiri Ramin Həsənovla görüşərək innovasiya ekosisteminin problemləri və fürsətlər haqqında müzakirələr aparıblar.

Təlim proqramının üçüncü hissəsi sentyabr ayında onlayn formada keçirilib.

**Qənirə Əhmədova**

# "WORK4CE" layihəsi çərçivəsində xarici universitet nümayəndələri universitetimizdə olublar



Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova və Ukrayna Zaporojye Politexnik Milli Universitetinin professoru Galina Tabunshchikinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş təhsil sahəsində qlobal tərəfdaşlıq yaradan və Avropa İttifaqının maliyyə dəstəyi ilə AzMİU-da təşkil olunan "WORK4CE" layihəsinin yekun iclası çərçivəsində reallaşıb. Dəyirmi masa arxasında aparılan görüşə layihənin tərəfdaşı olan Ukrayna universitetlərinin (Kiyev Milli İnşaat və Memarlıq Universiteti, Qərbi Ukrayna Milli Universiteti, Zaporojye Politexnik Milli Universiteti) administrativ heyəti qatılıb.

Qonaqları salamlayan rektor professor Gülçöhrə Məmmədova Erasmus+ WORK4CE təhsil layihəsinin faydalılığına diqqət çəkib. Rektor qeyd edib ki, istehsalat və təhsil sahələrinin müəyyən istiqamətlər üzrə birləşdirilməsinə hesablanmış layihədə AzMiU-nun iştirakı universitetin strateji fəaliyyət planına, həmçinin ali təhsilin inkişafı, təhsil, elm və istehsalat birliyinin formalaşdırılması ilə bağlı dövlət siyasətinə uyğun olaraq həyata keçirilir.

Görüş zamanı Ukrayna Universitetlərinin nümayəndələri AzMİU ilə təhsil və elm sahələrində mümkün əlaqələrə diqqət çəkiblər. Universitet ilə yeni əlaqələrin qurulmasında, mövcud əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını dilə gətiriblər.

Sonra AzMİU-nun təşkilatçılığı ilə Erasmus+ CBHE "21-ci əsrdə sağlam və təhlükəsiz iş üçün domenlərarası səriştələr" (Work4CE) layihəsi çərçivəsində biznes görüş keçirilib.

Görüş "Rəqəmsal transformasiyanın idarə edilməsi: Davamlı inkişaf naminə akademik çevrə və sənaye arasında körpü" adlı mövzuya həsr olunub. Layihənin avropalı professorları Belçikanın Löven Katolik Universitetindən Peter Arras, İspaniyanın Bask Ölkəsi Universitetindən Rikardo Minguez, Zaporojye Milli Politexnik Universitetindən Andriy Karpenko layihə çərçivəsində təmsil etdikləri universitetlərin təcrübələrini yerli şirkətlərlə bölüşüb, birgə fəaliyyətin hər iki istiqamətə verəcəyi töhfələrdən danışıblar.




Daha sonra layihənin proqramına uyğun olaraq universitetdə akademik heyət və tələbələr üçün təlimlər təşkil olunub.

Təlimlər beynəlxalq səviyyəli professor və müəllimlər – Belçikanın Löven Katolik Universitetindən Peter Arras, İspaniyanın Bask Ölkəsi Universitetindən Rikardo Minguez, Karolina Kruz, Pello Jimbert, Zaporojye Milli Politexnik Universitetindən Andriy Karpenko, Kiyev Milli İnşaat və Memarlıq Universitetindən Olena Vereniç, Dennie Jansen, Thorsten Ruben tərəfindən aparılıb.

Xarici universitet nümayəndələri inteqrasiya və stimullaşdırıcı akademik tədqiqatlarda yenilik, davamlı təhsildə universitet və şirkətlərlə əməkdaşlıq, rəqəmsal transformasiya prosesi fonunda peşəkarlar üçün dünyada yeni tələblər, yumşaq bacarıqlar, layihə idarəetməsində davamlılıq və s. istiqamətlərdə müəllim və tələbələri məlumatlandırıblar.

Layihənin bağlanış mərasimində isə Erasmus+ "WORK4CE" komandasına daxil olan universitet nümayəndələri hesabatlarla çıxış ediblər.

"WORK4CE"in menecerləri bir araya gələrək detallı müzakirə aparıb, layihənin təhsilin inkişafına gətirəcəyi müsbət təsirləri və davamlılığını nəzərdən keçiriblər. Menecerlər layihənin təhsil və istehsalat müəssisələri arasında əlaqənin qurulması, bu əlaqələrin sağlam zəmində inkişafı üçün yaratdığı imkanlara diqqət çəkərək, qərara gəliblər ki, "WORK4CE"in davamlılığının təmin olunması və yeni mərhələnin başladılması üçün Avropa İttifaqının Erasmus+ proqramına müraciət edilsin.

Qeyd edək ki, AzMİU Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ proqramı çərçivəsində "WORK4CE" konsorsiumunun icraedici strukturunda Azərbaycanı təmsil edir və icra olunan layihənin noyabr ayında bitməsi nəzərdə tutulur.

**Günel Həsənova**

# Professor Alik Nəcəfov Türkiyənin bir sıra universitetlərində elmi ezamiyyətdə olub



Azərbaycan Memarlıq və İnşaat Universiteti Ali riyaziyyat kafedrasının professoru Alik Nəcəfov Türkiyənin bir neçə universitetində elmi ezamiyyətdə olub.

Ezamiyyət müddətində o, Ankara, Səlcuk və Niğde Ömer Halisdemir universitetlərində riyaziyyatçı alimlərlə görüşüb. Professor səfər çərçivəsində əsasən Niğde Ömer Halisdemir Universitetində elmi-tədqiqat aparan magistrant və doktorantlarla riyazi sahədə öz nəzəri təcrübələrini bölüşüb. Alim gənc tədqiqatçılar qarşısında riyazi məsələlər qoyaraq birgə həll yolları axtarıb, elmi məqalələr hazırlayıb.

Professor Alik Nəcəfov tədqiqatçılar qarşısında "Qrand-morri tipli fəzalar və onlarda daxil olma tənliyi" mövzusunda çıxış da edib.

Eyni zamanda yuxarıda qeyd olunan universitetlərin tədqiqat laboratoriyaları ilə yaxından tanış olub, əməkdaşlarla maraqlı diskussiyalar aparıb. Onlara təmsil etdiyi kafedranın elmi fəaliyyəti və elmmetrik göstəriciləri, kafedrada aparılan tədqiqatlar ətrafında məlumat verib.

Qeyd edək ki, riyaziyyatçı alimin birgə tədqiqat işləri Türkiyə universitetləri ilə yekunlaşmır. Professor Avropanın nüfuzlu Kataniya və Neapol universitetlərinin alimləri ilə də sıx və uğurlu əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsi olaraq yaxın zamanda elmi məqalələrin çapı da nəzərdə tutulur.

**"İnşaatçı kadrlar"**

# Qərbi Azərbaycanın memarlıq irsi tələbələr tərəfindən tədqiq olunacaq

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Qərbi Azərbaycan Memarlıq İrsi" Mərkəzinin təqdimatı və ilk iclası keçirilib.

Universitetdə fəaliyyət göstərəcək Mərkəz akademik heyət və tələbələrin Qərbi Azərbaycanda yerləşən zəngin memarlıq irsini araşdırmaq, bu sahədə tədqiqatlar aparmaq, abidələrin tarixi və mədəni dəyərini geniş auditoriyaya çatdırmaq məqsədi ilə yaradılıb.

Bu gün keçirilən ilk iclasda Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Şahmar Rəfili çıxış edərək Mərkəz və




onun gələcək fəaliyyəti barədə tələbələri tanış edib. Onları Qərbi Azərbaycan memarlıq abidələrinin tarixi və mövcud vəziyyəti haqqında məlumatlandırıb. THİK sədri həmin ərazilərdə olan tarixi abidələrin yalnız Azərbaycan xalqının deyil, ümumbəşəri mədəniyyətin ayrılmaz tərkib hissəsi olduğunu bildirib.

Təqdimat zamanı bildirilib ki, Qərbi Azərbaycan ərazisi əsrlər boyu bir çox mədəniyyətlərə ev sahibliyi edib və bu zəngin tarix bölgənin memarlıq irsinə də öz damğasını vurub. Orada yer alan tarixi abidələr müxtəlif dövrlərin memarlıq üslublarını əks etdirir: qədim qala divarlarından tutmuş orta əsr məscidlərinə, karvansaraylara qədər. Təəssüf ki, bu abidələrin bir çoxu siyasi səbəblərdən ciddi zərər görüb və ya məhv edilib. Mərkəzin fəaliyyəti ilə həmin abidələr barədə məlumatların yenidən diqqətə çatdırılması, onların qorunması və tanıdılması üçün tələbə elmi-tədqiqat işləri, arxiv araşdırmaları, ekspedisiyalar təşkil ediləcək. Tələbələr bu mirası araşdıraraq dünya ictimaiyyətinə tanıdılmasına səy göstərəcəklər.

İclasda, həmçinin Mərkəzin gələcək fəaliyyət planlarından da danışılıb. Mərkəz tərəfindən yerli və beynəlxalq səviyyəli konfranslar, sərgilər, kitab nəşrləri və elmi-tədqiqat layihələrinin təşkil ediləcəyi deyilib.

Məlumat üçün bildirək ki, AzMİU-nun tələbə və müəllimləri bu Mərkəz vasitəsilə, həm Qərbi Azərbaycanın mədəniyyətinə, həm də ümumi memarlıq tarixinə mühüm töhfələr vermək niyyətindədirlər.

**Aysel Quliyeva**

## AzMİU və Dokuz Eylül Universiteti tələbələri Bakı ilə İzmir şəhərlərinin şifrəsini açmaq üçün bir araya gələcəklər



Türkiyənin Dokuz Eylül Universiteti (DEU) ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti arasında imzalanan əməkdaşlıq protokolu çərçivəsində "Şəhərin şifrəsini açmaq – şəhər kimliyini yenidən düşünmək: Bakı-İzmir" adlı vorkşopa start verilib.

Vorkşopun məqsədi Bakı və İzmir şəhərlərinin timsalında şəhər kimliyini xəyali komponentlərlə açmaq və bu komponentlərin qavrayış və təcrübi keyfiyyətlərini gücləndirə biləcək təkliflər hazırlamaqdır. Vorkşopda onlayn və oflayn qaydada konseptual və məkanla bağlı məlumatlandırıcı təqdimatların edilməsi, hər iki şəhərin ərazi keyfiyyətlərini deşifrə etmək və təkliflər vermək planlaşdırılır.

3 mərhələdə aparılacaq vorkşopun ilk mərhələsi onlayn qaydada həyata keçirilib.

AzMİU-nun Dizayn fakültəsi, Mühit dizaynı kafedrası, Xarici əlaqələr şöbəsi və DEU-nun Memarlıq fakültəsinin təşkilatçılığı ilə keçirilən onlayn vorkşopa hər iki universitetdən seçilən 10 tələbə və professor-müəllim heyəti qatılıb.

AzMİU-nun Mühit dizaynı kafedrasının müdiri professor Yeganə Hacıyeva və DEU-nun Memarlıq fakültəsinin professoru Hümeyrə Birolun moderatorluğu ilə keçən onlayn görüşdə iştirakçılar birgə yerinə yetiriləcək məsələləri müzakirə ediblər.

Qeyd edək ki, 1 həftə müddətində keçirilməsi nəzərdə tutulan vorkşopda AzMİU-nun Mühit dizaynı kafedrasının müdiri Yeganə Hacıyeva, müəllimlər Aytən Şərifova, Cəmalə Qəribli, DEU-dan Memarlıq fakültəsinin müəllimləri professor Hümeyrı Birol, Gözde Ekşioğlu Çetintahra tələbələrə Bakı və İzmir şəhərləri barədə təqdimatlar edəcəklər. Bu müddət ərzində tələbələr 4 nəfərlik komandalar şəklində onlara verilən mövzuları birgə yerinə yetirməyə, tapşırıqlara uyğun təkliflər səsləndirməyə çalışacaqlar.

Növbəti mərhələlərdə isə hər iki universitet nümayəndələrinin Bakı və İzmirə səfərləri təşkil olunacaqdır.

AzMİU tələbələri İzmir hissəsində "Konak və onunla əlaqəli tarixi faktura", DEU tələbələri isə Bakıda "Sahil istirahət zonası və onunla əlaqəli tarixi faktura" istiqamətli tədqiqatlar aparacaq, yer, ictimai açıq məkan və tarixi şəhər modelinə nəzər yetirəcək, təkliflər hazırlayacaqlar.

**Könül Şirinova**

## AzMİU və Vestminster Universiteti arasında ikili diplom proqramı üzrə mühüm görüşlər keçirilib

Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə İngiltərənin Vestminster Univer- siteti arasında imzalanmış Memarlıq abidələrinin bərpası və yenidən qurulması üzrə magistr dərəcəsi üzrə ikili diplom proqramı çərçivəsində Xarici əlaqələr şöbəsinin müdiri və Ekologiya kafedrasının baş müəllimi Fərhad Əliyev Vestminster Universitetində səfərdə olub.

Səfərin məqsədi iki universitet arasında əməkdaşlığın genişləndirilməsi, tələbələr üçün təhsil imkanlarının artırılması və yeni layihələrin müzakirəsi olub.

Fərhad Əliyev səfər çərçivəsində Vestminster Memarlıq və Şəhərlər Məktəbində keçirilən magistr proqramının məzun sərgisində iştirak edib. Bu sərgi tələbələrin memarlıq sahəsindəki ən son layihələrini təqdim etdiyi platforma kimi mühüm rol oynayıb. Eyni zamanda, Xarici əlaqələr şöbəsinin müdiri Vestminster Universitetinin rəhbər heyəti ilə də görüşlər keçirib. Görüşlər zamanı ikili diplom proqramının inkişafı və gələcəkdə yeni layihələrin icrası məsələləri ətrafında söhbət aparılıb. Hər iki tərəf tələbələrin beynəlxalq təcrübə qazanması və memarlıq sahəsində innovativ yanaşmaların tətbiqinin vacibliyini vurğulayıblar.

Bunlarla yanaşı, şəhərsalma sahəsində ikinci bir ikili diplom proqramının imzalanması üçün də ilkin razılığa gəlinib. Yeni əməkdaşlıq istiqaməti tələbələrə şəhərsalma üzrə daha geniş təhsil imkanları təqdim edərək, Azərbaycanın bu sahədə yetişən mütəxəssislərinin beynəlxalq arenada mövqeyini gücləndirəcək. Birgə əməkdaşlıq tələbələrin bilik və bacarıqlarını artırmaqla yanaşı, Azərbaycanın memarlıq məktəbinin nüfuzunu da artıracaq. İkili diplom proqramı vasitəsilə tələbələr həm nəzəri, həm də praktiki biliklər qazanacaq, beynəlxalq səviyyədə rəqabətə davamlı peşəkar kadr kimi formalaşacaqlar.

**Arzu Vəlizadə**

Yeni nəşrlər

## Professor Azər Qasımzadənin həmmüəllifi olduğu kitab "Springer" tərəfindən nəşr olunub

Azərbaycan Memarlıq və İnşaat Universiteti Zəlzələ Mühəndisliyi Elmi-Tədqiqat Mərkəzinin rəhbəri, rektorun müşaviri professor Azər Qasımzadənin həmmüəllifi olduğu "Zəlzələyə davamlı dizayn, mühafizə və zəlzələ mühəndisliyində performansın qiymətləndirilməsi" (Earthquake Resistant Design, Protection, and Performance Assessment in Earthquake Engineering) adlı kitabı İsveçrədə beynəlxalq "Springer" yayın evində nəşr olunub.




Kitab zəlzələ mühəndisliyi sahəsində məşhur tədqiqat sahələrində ən son nailiyyətləri əhatə edir və 3 hissədən ibarətdir.

Kitabın birinci hissəsinə seysmik mühafizə sistemləri, qüllə konstruksiyaları üçün yeni passiv izolyasiya sistemi, sürtünmə əsaslı izolyasiya sistemləri, dövri dəyişən izolyasiya sistemləri və təqdim olunan tətbiqlər, İtaliya, Yaponiya və Makedoniyadakı son inkişaflar haqqında yeddi fəsil daxildir. Bu hissədə uzunmüddətli strukturlar üçün dizayn əsaslı yer hərəkətinin xüsusiyyətləri izah olunur.

İkinci hissədə isə Strukturların Performans Qiymətləndirilməsi üçün Qeyri-Dağıdıcı Sınaq (NDT) və Struktur Sağlamlıq Monitorinqi (SHM) üzrə yeni inkişaflar üzrə üç fəsil yer alır. ABŞ, Kanada və Türkiyədə edilən tətbiqlər və son inkişaf tendensiyaları təqdim olunur.

III hissə Seysmik Fəaliyyətin Qiymətləndirilməsi üzrə səkkiz fəsildən ibarətdir. Bu hissədə çox mühüm komponentlər üzrə nəticələr müzakirə edilir.

Həmmüəlliflər Azər Qasımzadə, Mustafa Erdik, Tribikram Kundu, Haluk Sucuoğlu, Paolo Klementenin ən son tədqiqat nəticələrini qısa xülasə şəklində təqdim edən kitab zəlzələ mühəndisliyi üzrə geniş spektrli mütəxəssislər, o cümlədən doktorantlar, təlimatçılar, dizaynerlər və tədqiqatçılar üçün maraqlı elmi ədəbiyyat hesab olunur.

Kitab AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədovanın təşəbbüsü və fəxri sədrliyi ilə Bakıda keçirilmiş nüfuzlu "Seysmik Dayanıqlı Müasir Qurğular" (AERS 2023, 26 -28 aprel 2023) Beynəlxalq Konqresinin məqsədinə və nəticələrinə əsaslanıb.

## AzMİU alimlərinin yeni dərs vəsaiti işıq üzü görüb

Tələbələrimiz Ali riyaziyyat fənnindən məsələ və misalların həlli yollarını daha asan mənimsəyə biləcəklər




Azərbaycan Memarlıq və İnşaat Universitetinin Ali riyaziyyat kafedrasının müəllimləri, fizika-riyaziyyat elmləri namizədi, dosent Əlixan Mehdiyev, fizika-riyaziyyat elmləri doktoru, professor Alik Nəcəfov, riyaziyyat elmləri namizədi, dosent Mehralı Əliyevin həmmüəllifliyi ilə "Ali riyaziyyatdan məsələ və misallar toplusu" adlı dərs vəsaitlərinin I və II hissələri nəşr olunub.

Dərs vəsaitləri ölkəmizin ali məktəblərində iki pilləli təhsil sisteminə keçidlə əlaqədar olaraq tədris olunan "Ali riyaziyyat" kursunun məzmununu yeniləmək, bu günün tələblərini və təcrübi reallığı uyğunlaşdırmaq məqsədilə nəşr olunub.

Təqdim olunan dərs vəsaitləri müəlliflərin uzun illər Azərbaycan Memarlıq və İnşaat Universitetində "Ali riyaziyyat" kursundan oxuduqları mühazirələr və apardıqları məşğələlər əsasında fənnin yeni tədris proqramına uyğun tərtib edilib. Birinci hissəsi doqquz, ikinci hissəsi isə yeddi fəsildən ibarət olan dərs vəsaitində "Ali riyaziyyat" kursunun riyazi statistikanın elementləri, adi diferensial tənliklər, sıralar, ehtimal nəzəriyyəsi bölmələri şərh olunur.

Kitabın hər bölməsində mühüm tərifləri, teoremləri və düsturları özündə əks etdirən zəruri nəzəri materiallar yığcam şəkildə şərh olunur. Dərs vəsaitində şərh olunan hər bir mövzudan sonra tələbələrin praktiki vərdişlərini təkmilləşdirmək məqsədilə müxtəlif çətinlik səviyyəli məsələ və misallar öz əksini tapmışdır.

Qeyd edək ki, dərs vəsaitini AzMİU-nun kitabxanalarından əldə etmək mümkündür.

Nəfis tərtibatda nəşr olunmuş hər iki dərs vəsaitinin dili aydın və sadədir. Bu dərs vəsaitlərindən ali məktəblərdə təhsil alan tələbələr, doktorantlar və bu fənni tədris edən müəllimlər istifadə edə bilərlər.

Oxucular adından kitabların müəlliflərinə təşəkkür edirik.

**Anar Hümmətov,**
**Ali riyaziyyat kafedrasının baş müəllimi.**

**Təsisçi:**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**

**Redaktor:**
**Akif HACIYEV**

**Qeydiyyat № 316**
**Qəzet 1983-cü ildən çıxır**

**Ünvanımız:**
**Az1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11**



**E-mail:**
**pr.media@azmiu.edu.az**
**redaksiya@inbox.ru**
**Telefon: 539-07-28**
**daxili 5-43, 6-08**
**Qəzet "Azərbaycan Nəşriyyatı" MMC-də ofset üsulu ilə çap olunmuşdur.**
**Tiraj 300**
**Sifariş 2274**